İPƏK YOLU, No.1, 2026, səh.175-181
https://doi.org/10.30546/SI.2026.001.1088

# NİL QEYMANIN "XOŞ PROQNOZLAR" ROMANINDA APOKALİPSİS MÖVZUSUNUN İRONİK İNTERPRETASİYASI

**Səkinəxanım Əliyeva**

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, AMEA, Bakı, Azərbaycan
e-mail: squrbanlis@mail.ru

**Xülasə.** Məqalədə qədim zamanlardan insanı ən çox maraqlandıran anlayış olan son, qiyamət ədəbi dillə desək, apokalipsis ilə bağlı dini-mifoloji yanaşmaların Nil Qeymanın "Xoş proqnozlar" romanında necə ironik tərzdə interpretasiya edildiyinin araşdırılmışdır. Giriş hissədə apokalipsis anlayışı ilə bağlı nəzəri-dini yanaşmalar barədə məlumat verilmiş, birinci əsas hissədə Nil Qeymanın "Xoş proqnozlar" romanının mifoloji strukturu ilə bağlı təhlillər verilmiş, ikinci əsas hissədə sözügedən romanda ənənəvi apokalipsisə ironik yanaşmalar tədqiq edilmişdir. Nəticə hissəsində təhlillər və mülahizələr ümumiləşdirilmişdir.

**Açar sözlər:** Nil Qeyman, "Xoş proqnozlar", mif, din, apokalipsis, ironiya.

**IRONICAL INTERPRETATION OF THE APOCALYPSE THEME IN NEIL GAIMAN'S NOVEL "GOOD OMENS"**

**Sakinakhanim Aliyeva**
*Institute of Literature named after Nizami Ganjavi, ANAS, Baku, Azerbaijan*

**Abstract.** The article is devoted to the study of how religious-mythological approaches to the apocalypse, the concept that has interested people the most since ancient times, is interpreted ironically in Neil Gaiman's novel "Good Omens". The introductory part provides information on theoretical-religious approaches to the concept of apocalypse. The first main part provides an analysis of the mythological structure of Neil Gaiman's novel "Good Omens" and the second main part examines ironic approaches to the traditional apocalypse in this novel. The conclusion summarizes the analyses and considerations.
**Keywords:** Neil Gaiman, Good Omens, myth, religion, apocalypse, irony.

## 1. Giriş

Kainatın yaradılışı ilə yanaşı, sonu haqqında da özünəməxsus təsəvvürlər təqdim edən mifologiyada apokalipsis mövzusu mühüm əhəmiyyət daşıyır. Bəzi xalqların mifologiyasında dünyanın sonu geri dönüşü olmayan bir final kimi təsvir edilmiş, bəzilərində isə bu son yenidən yaradılışa vəsilə kimi təqdim edilmişdir. Bəzi mifologiyalarda isə bu dünya qüsurlu olduğundan yerini sonda mükəmməl bir versiyanın alacağına inam özünü göstərməkdədir. Lakin dünyanın sonu ilə bağlı yanaşmalar nə qədər fərqli olsa da, məzmun dəyişmir; apokalipsis dünyanın sonu və ya böyük bir fəlakət nəticəsində mövcud nizamın dağılması mənasını qoruyur. Apokaliptik ədəbiyyat isə insanlığın varlığı, sivilizasiyanın davamlılığı və dünyanın gələcəyi kimi məsələlərə işıq tutur və onları sual altına qoyur. Apokalipsisi bir janr kimi tədqiq edən Con Kollinzə görə "Apokaliptik mətnlər təhkiyə çərçivəsinə malik olan vəhy ədəbiyyatı janrını əmələ gətirir; bu janrda vəhy o biri dünyadan bir varlıq vasitəsilə insana ötürülür və həm esxatoloji quruluşun nəzərdə tutduğu qədər dünyəvi, həm də başqa bir fövqəlüstü dünyanı əhatə etdiyi qədər transsendent reallığı meydana çıxarır" (*According to him, apocalyptic texts form a genre of revelatory literature with a narrative framework, in which a revelation is mediated by*

*an otherworldly being to a human recipient, disclosing a transcendent reality which is both temporal, insofar as it envisages eschatological salvation and spatial, insofar as it involves another, supernatural world)* [7]. Apokalipsis mövzusu bədii əsərlərdə çox zaman mifik və dini səbəblərə əsaslanır: İlahi qəzəb nəticəsində qiyamət baş verir. Bununla belə, texnologiyanın sürətli inkişafı nəticəsində böyük fəlakətlərin baş verməsi, cəmiyyətlərin dağılması, sağ qalma mübarizəsi və yeni nizamın yaradılması da müasir ədəbiyyatda tez-tez özünü göstərməkdədir. Belə ki, bu janr həm dini, həm sosial, həm də texnoloji baxımdan işlənir və oxucuları insanlığın taleyi barədə həm qorxudur, həm də düşünməyə vadar edir.

## 2. Nil Qeymanın "Xoş proqnozlar" romanının mifoloji obraz strukturu

Görkəmli ingilis yazıçısı Nil Qeymanın (*Neil Gaiman*) Terri Pratçett (*Terry Pratchett*) ilə həmmüəllifi olduğu "Xoş proqnozlar" (*Good Omens*) yaxınlaşan qiyamətdən (apokalipsis) bəhs edən yumoristik romandır. Şeytanın oğlunun (*Antixrist*) doğumu dünyanın qiyamət öncəsi son günlərini yaşamasının xəbərçisidir. Lakin əsrlərdir İngiltərədə rahat mühitə alışmış mələk Azirafael (*Aziraphale*) və iblis Krouli (*Crowley*) qiyamətin gəlişinin qarşısını almaq üçün plan qururlar. Məhz roman da bu plandan - Adəm adlı Antixristin (*Antichrist, Adam*) doğulduğu gün balaca qəsəbə hospitalında qarışıq düşməsindən və yanlış ailə ilə yanlış qəsəbə kəndində böyüməsindən bəhs edir. Belə ki, cənnətin (*Eden*) qapılarının qoruyucusu olan mələk Azirafael və Həvvanı ilan cismində başdan çıxaran iblis Krouli dünya yaranandan bəri Yer üzündə yaşayırlar. Onlar minilliklər ərzində qəribə bir dostluq qurur və insanlardan xoşları gəlirdi. Bir gecə Cəhənnəm qüvvələri körpə Antixristi İngiltərədə yaşayan amerikalı bir diplomatın oğlu ilə dəyişdirmək təlimatını yerinə yetirməsi məqsədilə Krouliyə çatdırırlar. Krouli bunun qiyamətin yaxınlaşdığı mənasına gəldiyini anlayır və Azirafaeli qiyaməti ləngitməkdə kömək etməsi üçün razı salır. İkisi birlikdə dayə və bağban qiyafəsinə bürünərək Antixristin böyüməsində təsirli rol oynayaraq, uşağın Tanrı və Şeytan arasındakı seçimə qərar verə bilməməsinə səbəb olmağı bacarırlar. Lakin maraqlısı odur ki, xəstəxanadakı bəzi yanlış anlamalar səbəbiylə əsl Antixrist əslində üç yaxın dostu Pepper (*Pepper*), Venslideyl (*Wensleydale*) və Brayan (*Brian*) ilə birlikdə Oksfordşirin (*Oxfordshire*) aşağı, pastoral Tedfild bölgəsində (*Lower Tadfield*) gözdən iraq böyüyən Adəm Yanq (*Adam Young*) adlı başqa bir oğlan imiş. Dünyanın proqnozlaşdırılan sonu yaxınlaşdıqca Adəm bilmədən reallığı dəyişdirmə gücündən istifadə etməyə başlayır. Belə ki, dünyanı öz baxış bucağına uyacaq şəkildə dəyişdirən Adəm bir jurnalda itmiş Atlantis qitəsi haqqındakı konspirasiya nəzəriyyələrini oxuduqdan sonra onu yenidən üzə qaldırır; dostları ilə yadplanetlilər haqqında danışdıqdan sonra UFO-ları çağırır; Amazon yağış meşələrinin şəhərsalmanın inkişafı üçün itirdiyi torpaqlarını geri qaytarır. Bu sırada isə qiyamətin dörd atlısı bir araya toplanır: Müharibə (müharibə müxbiridir), Qıtlıq (dietoloq və fastfud kralıdır), Çirklənmə (Penisilinin kəşfindən sonra təqaüdə çıxmış vəbadır) və Ölüm (velosipedçidir).

Tezliklə, Azirafael və Krouli səhvlərini başa düşürlər və əsl Antixristi axtarmağa başlayırlar. Onlarla yanaşı, ata-babası Aqnes Natterin (*Agnes Nutter*) proqnozlaşdırdığı Apokalipsisin qarşısını almağa çalışan cadugər Anafema Divays (*Anathema Device*) da bu uşağı axtarır. Agnesin peyğəmbərlikləri tamamilə doğrudur, lakin işə yaramayacaq qədər şifrəli və spesifikdir. Anafema zina etməyən Pulsiferin soyundan gələn, eləcə də, Aqnes Natteri işgəncə dirəyində yandıran Cadu ovçuları ordusunun (*Witchfinder Army*) tək üzvü olan Cadu ovçusu Nyuton Pulsifer (*Newton Pulsifer*) ilə güclərini birləşdirir. Nyuton Pulsifer ordunun digər tək üzvü çavuş Şedvell (*Shadwell*) tərəfindən Tedfild bölgəsindəki qəribə olayları araşdırmaq üçün göndərilmişdir. Şedvellin ruhlarla əlaqəyə girə bilən qonşusu Madam Treysi (*Madam Tracy*) də daxil olmaqla hər kəs dörd atlının kompüter sistemlərinə müdaxilə edərək dünyanın sonunu gətirəcək nüvə müharibəsinin başladılacağı yer olan Tedfild hərbi bazasında toplaşır.

Hadisələr daha da bir-birinə qarışdıqca Adəm bu əzəmətli güclərə qalib gəlir və o, dünyanı öz dəstəsi arasında bölməyə çalışır. Dostları onun nə hala gəldiyinə dəhşət içərisində reaksiya verdikdə Adəm özünə gəlir və Qiyaməti dayandırmağa qərar verir. Adəm dostları ilə hərbi bazaya yollanır və Dörd Atlıdan üçünü məğlub edir. Ölüm isə məğlubiyyəti qəbul edir və yox olur. Qəzəblənmiş Şeytan Yer üzünə qalxmağa başlayır, lakin "atasının gəlişi" xəbərini eşidən Adəm həqiqətləri təhrif edir. Beləcə, onun yerinə Adəmin insan olan ögey atası gəlir və hər kəsin son hadisələrlə bağlı xatirələrini silərək dəyişdirir.

Armaqeddonun (Dini mətnlərdə dünyanın sonu gəldikdə olacağı proqnoz edilən böyük Qiyamət savaşının adı) qarşısı alındıqda, Krouli və Azirafael bunun ən başından bəri Tanrının planı olduğunu və əsl apokaliptik münaqişənin insanlıq ilə Cənnət və Cəhənnəmin birləşmiş qüvvələri arasında olacağını düşünürlər. Madam Treysi çavuş Şadvellə evlənir və bu, Cadu ovçuları ordusunu effektiv şəkildə dağıtır. Anafema isə Nyutonla münasibət qurmağa başlayır və Aqnesin proqnozlarının olduğu ikinci kitabı əldə edir. Lakin Anafema həmin öncəgörmələrə bağlı qalmamaq üçün kitabı yandırmağa qərar verir. Sonda Adəm öz gücü və səlahiyyətlərindən istifadə edərək atasının əhatəsindən uzaqlaşır və dostları ilə sirkə gəzməyə gedir.

Romandakı obrazları 4 əsas kateqoriya üzrə bölə bilərik: Mələklər, Şeytanlar, İnsanlar və Məhşərin atlıları. Əsərdə xeyir qüvvələrin başçısı kimi kainatı və hər şeyi yaradan Tanrı obrazı təqdim edilmişdir. Onun siması yaxud görünüşü haqda heç bir məlumat olmasa da, roman boyu onun yalnız səsi mövcuddur. Eləcə də, əsərdəki hadisələr Tanrının "böyük planı" üzrə hərəkət edir. Müəllifin yaratdığı Tanrı obrazı əsl mahiyyəti dərkedilməz, planı bilinə bilməz və təsvir edilə bilinməzdir: "*God does not play dice with the universe; He plays an ineffable game of His own devising, which might be compared, from the perspective of any of the other players [i.e. everybody], to being involved in an obscure and complex variant of poker in a pitch-dark room, with blank cards, for infinite stakes, with a Dealer who won't tell you the rules, and who smiles all the time*" [4, s.9]. Eləcə də, əsərdə Metatron adı ilə Tanrının səsi rolunu oynayan və özlüyündə bir varlıq olan obraz da qarşımıza çıxır. Lakin əsərdə diqqət çəkən obrazlardan başlıcası mələklərdir. Mələk Azirafael Cənnətdə mələk olaraq fəaliyyət göstərsə

də, Yer kürəsində nadir kitablar satıcısı kimi işləyir. Romanda onun təsviri bu cür verilir: "*Many people, meeting Aziraphale for the first time, formed three impressions: that he was English, that he was intelligent, and that he was gayer than a treeful of monkeys on nitrous oxide*" [4, s.132]. Mikayıl (*Michael*) isə baş mələkdir və mələklər arasında Tanrıya ən yaxın olandır. Cəbrayıl (*Gabriel*) isə Cənnətin ordusunun lideridir və daha çox Tanrının elçisi qismində çıxış edir.

Əsərin protaqonistlərindən bir digəri isə şeytanlar dəstəsindən olan iblis Kroulidir. Krouli Cənnətə qarşı olan üsyana rəhbərlik etmiş və üsyançı mələklər qovulduqda məkan olaraq yox, bir təşkilat qismində Cəhənnəmi yaratmaqdan məsul şəxs olmuşdur. Krouli Azirafael ilə birlikdə romanın ortaq baş qəhrəmanıdır. Lakin Krouli tam olaraq Cənnətdən qovulmuş sayılmır. Onun təsvirində verildiyi şəkildə desək, o "naməlum şəkildə üzü aşağı gəzişib" (*An Angel who did not so much Fall as Saunter Vaguely Downwards*) [4, s.7]. Hadisələrin mərkəzində yer alan bir digər qəhrəman isə Adəm Yanqdır. Adəm romanda antixrist yəni Dəccal obrazıdır. Düşmən, Krallıqları məhv edən, Dibsiz Çuxurun - Cəhənnəmin Mələyi, bu dünyanın Şahzadəsi və Qaranlıqların Rəbbidir. Eləcə də, yaşadığı fani dünyada yaşıdlarından ibarət olan Onları (*Them*) adlı qrupun lideridir. Adəmin yəni Dəccalın əsl atası olan Şeytan isə (*Satan*) roman boyu sadəcə adı və qüdrəti haqqında danışılan, adı belə çəkildikdə qorxudan hər kəsin titrədiyi qorxunc bir varlıq kimi təsvir olunur. Əsərin yalnız sonuna yaxın itaətsizlik edən oğlu Antixristi cəzalandırmaq üçün o, Yer üzünə enir.

Romanda Cəhənnəm Şahzadəsi və şər qüvvələrinin lideri Velzevul (*Beelzebub*) da diqqətçəkən obrazlardan biridir. Velzevul qədim zamanlarda Ekron şəhərində Fələstinlilər tərəfindən sitayiş olunan, sonralar isə bəzi İbrahimi dinlərdə önəmli bir demonik fiqur olaraq təsvir edilmiş tanrıdır. Velzevul xüsusən Kənan diyarında sitayiş edilmiş Şimal-qərb Samilərinin tanrısı Vaal (*Baal*) ilə əlaqələndirilməkdədir. Xristian dini qaynaqlarında isə Velzevul Şeytan sözü ilə eyni mənada istifadə edilir. Demonizmdə isə Velzevul Lusifer (*Lucifer*) və digər tanrılar ilə birlikdə Cəhənnəmi idarə edən 7 lorddan biri olaraq tanınır. Tanaxda adı keçən və "milçəklərin hökmdarı" (*lord of flies*) mənasını verən "Baʿal Zəvûv" ifadəsinin tanrının əsl adının - "səmavi evin hökmdarı" (*lord of the heavenly dwelling*) İsrailoğulları tərəfindən tanrıya sitayiş edənləri alçaldıcı şəkildə həşərata bənzətmək məqsədilə istifadə etdikləri düşünülür.

Əsərdəki bir digər iblis obrazı isə Hasturdur (*Hastur*). Ktulhu (*Cthulhu*) mifologiyasında yer alan Hastur bu romanda Yer üzündə çox az vaxt keçirən bir iblis və Cəhənnəm hersoqu qismində qarşımıza çıxır. Bir digər Cəhənnəm hersoqu Liqurdur (*Ligur*). Cəhənnəmdə yüksək mövqeyə malik iblis olan Liqur Şeytanın oğlu Antixristi Krouliyə çatdırır. Hastur və Liqur həmişə birlikdə hərəkət edirlər və Antixristə Cəhənnəm itini onlar göndərirlər. Liqurun həmçinin, Cənnət və Cəhənnəm arasında elçi rolunu oynayan mələk Mikayıl ilə də gizli əlaqəsi mövcuddur. Kroulinin satqınlığını öyrəndikdən sonra Liqur və Hastur yoldaşları iblisi tutmağa gedirlər. Lakin Krouli gizli yollarla əldə etdiyi Müqəddəs Sudan istifadə edərək

Liquru məhv edə edir. Son olaraq isə, dünyada gedən xeyir və şər əməllərin hesabatı sənədlərinə baxan əzablar ustası Daqon (*Dagon*) şər qüvvələrin nümayəndəsidir. Roman boyunca o, radio vasitəsilə Krouli ilə əlaqə saxlayır və ona lazımi göstərişləri verir.

Romanda fövqəlüstü varlıqlarla yanaşı, insan obrazları da əhəmiyyətli rola malikdir. İlk olaraq, romandakı süjet xəttinin əsasını təşkil edən hadisələrin - proqnozların sahibi Aqnes Natter haqda qeyd etmək istərdik. Aqnes XVII əsrdə yaşamış cadugərdir və məşhur “The Nice and Accurate Prophecies of Agnes Nutter, Witch” (*Cadugər Aqnes Natterin xoş və dəqiq proqnozları*) kitabının müəllifidir. Lakin Aqnes Zina Etməməlisən ləqəbi ilə tanınan Pulsifer tərəfindən tonqalda yandırılmışdır. Aqnesin nəslindən gələn Anafema Divays isə okkultizmlə məşğul olur. Nyuton Pulsifer Cadu ovçuları ordusunun maaşlı fərdi işçisidir. Nyutonu bu işə gətirən Cadu ovçuları ordusunun sonuncu üzvü çavuş Şedvelldir. Şedvellin qonşusu Madam Treysi isə Azirafael tərəfindən sahiblənilmiş bir spiritualistdir. Adəmin dostları hadisələrin gedişatında və Antixristin həqiqətləri görməsində böyük rol oynayır. Pepper “Onlar” (The Them) qrupunun yeganə qadın üzvüdür. Venslideyl və Brayan isə qrupun ağıllı və çoxbilmiş digər üzvləridir. Romanda bir digər uşaq qəhrəman Azirafael və Krouli tərəfindən əsl Antixrist ilə səhv salınan Varlok Daulinqdir (*Warlock Dowling*). Bacı Meri Lokvazis (Mary Loquacious) isə Müqəddəs Berilin söhbətcil cəmiyyətinin rahibəsidir. O, körpə Antixristi bir başqa insan övladı ilə səhv salaraq bütün gedişatı dəyişmişdir. Eləcə də, romanda Antixristi böyüdüb, tərbiyə edən fani atası Cənab Yanq (Mr. Young) da sonda əhəmiyyətli iş görərək, Adəmi tutduğu yanlış yoldan caydırmağa nail olur. Bir digər köməkçi qəhrəman isə Beynəlxalq Ekspres (*International Express*) adlı çatdırılma şirkətinin kuryeridir. Bu kuryer Məhşərin Dörd Atlısına onların vəzifələri haqqında təlimatları çatdırır. Ən sonda Ölüm atlısına ismarıc apararkən həyatını itirir.

Romanda özünəməxsus təsvirləri ilə seçilən bir digər qəhrəmanlar isə Məhşərin Dörd Atlılarıdır - Ölüm (*Death*), Müharibə (*War*), Qıtlıq (*Famine*), Çirklənmə (*Pollution*). Bu atlılar vəzifələrinə uyğun olaraq dünyaya gəlir və apokalipsisi həyata keçirmək üçün hərəkətə keçirlər. Lakin hadisələrin gedişatı planlaşdırdıqları kimi getmir Qiyamət xülyası yarımçıq qalır. Ölüm Məhşərin Dörd Atlılarının lideridir və Qiyamətdən sağ qalan yeganə şəxsdir. Ölümdən qaçış yoxdur və o hər yerdədir. Əsərdə o, qaçılmaz sonluğu və insanların ölüm qorxusunu ifadə edir. Müharibə atlıların ən güclüsü olub, gücünün əsasını Tanrının vaxtiykən Azirafaelə verdiyi alovlu qılınc təşkil edir. Romanda bu obraz insanlar arasındakı qarşıdurmanı simvolizə edir. Qıtlıq gücünü bir cüt tərəzidən almaqdadır və dünya miqyasında aclıq və qida ilə bağlı problemləri təcəssüm etdirir. Orijinal mifdə Taun yaxud Vəba (*Pestilence*) atlısı olaraq bilinsə də, müasir dövrdə onun yerini Çirklənmə əvəz edir və onun əsas gücü çirkdən qaralmış tacındadır. Müəllifin satirik təsvirinə görə Çirklənmədən əvvəlki atlı olan Vəba 1936-cı ildə penisilinin kəşfindən narazı qalaraq təqaüdə çıxmışdır. Beləliklə, göründüyü kimi Nil Qeymanın bu romanı apokalipsisi ənənəvi dini və mifoloji təsvirlərdən fərqli olaraq daha ironik və yumoristik tərzdə təqdim etmişdir. Düzdür, əsər bütünlüklə, xristian esxatologiyasına

(dünyanın sonu ilə bağlı dini inanclara) əsaslansa da, Qeyman bu mövzunu satira və parodiya ilə bəzəyərək işləyib.

### 3. Nil Qeymanın "Xoş proqnozlar" romanında apokalipsis mövzusunun mifik alt qatı

"Xoş proqnozlar" romanının əsas süjetini xristian mifologiyasına əsaslanan apokalipsisə yəni dünyanın sonuna və son müharibə olan Armaqeddona hazırlıq təşkil edir. Tanrının tərəfdarları və Şeytanın qüvvələri final döyüşünə hazırlaşır, lakin hadisələr ironik şəkildə inkişaf edərək dəyişir. Romanda apokalipsis Bibliyadakı Vəhy kitabında (*Revelation*) təsvir olunan hadisələrə əsasən baş verməlidir, yəni Şeytanın oğlu olan Antixrist (*Dəccal*) dünyaya gəlməli və böyüyərək Qiyamətə səbəb olmalıdır. Lakin doğuş zamanı baş verən qarışıqlıq nəticəsində Antixrist sadə bir ailədə normal bir İngilis uşağı olaraq böyüyür. Adəmin apokaliptik gücləri olsa da, o, nə iblis, nə də müqəddəs olaraq yetişdirilmədiyindən adi bir uşağın təsəvvürlərinə malikdir. Odur ki, bu məqamda xristian mifologiyasında əksini tapmış apokalipsisin gedişatı öz oxundan çıxır və müəllifin geydirdiyi ironik qiyafəyə bürünür.

Apokalipsisə satirik yanaşma bu romanda dünyanın sonunun qaçılmaz və faciəvi bir hadisə kimi deyil, absurd və lazımsız bir müharibə kimi təsvirində özünü göstərir. Müəllif açıq şəkildə Tanrı və Şeytanın müharibəsi nə üçündür? Müharibə və qiyamət zəruridir mi? suallarını qaldıraraq dini apokalisislə bağlı inancları tənqir edir və oxucunu bu barədə düşünməyə vadar edir. Romanın əsas ideyalarından birini də məhz Tanrı və Şeytanın müharibəsinin məntiqsiz olması və insanlara real heç nə verməməsi nüansı təşkil edir. Çünki, əslində, bu sadəcə bir "güc nümayişi"dir.

Eləcə də, romandakı mələk Azirafael və iblis Kroulinin insanlığı sevdiklərinə görə apokalipsisin qarşısını almağa çalışması məqamı vasitəsilə Qeyman yaxşılıq və pisliyin sadəcə dini müharibə məsələsi deyil, insan təcrübəsinin bir hissəsi olduğunu göstərməyə çalışmışdır. Bununla yanaşı, Adəmin yəni, Antixristin qiyaməti gerçəkləşdirə biləcək gücə sahib olsa da, bu cür hadisələrin baş verməsini lazım bilmədiyi üçün dünyanın məhvinə icazə verməməsi müəllifin insan iradəsinin dini determinizmdən üstün olduğu ideyasını irəli sürməsindən xəbər verir.

Romanda apokalipsis klassik dini təsvirlərə təqdim olunsa da, bəşəriyyətin perspektivindən onun absurdluğu vurğulanır. Məsələn, Azirafael və Krouli iki fərqli qütbün təmsilçisi olsa da, onlar insani keyfiyyətlərə də malikdir: heç də iblislər deyildiyi qədər pis, mələklər isə müqəddəs deyillər. Həmçinin, əsərin sonunda əsas personajların apokalipsisin qarşısını alması fatalist dünya görüşünün inkarıdır. Belə ki, burada apokalipsis yalnız dünyanın sonu deyil, həm də yeni bir başlanğıcın simvoludur: Adəm Yanq qiyaməti dayandırmaqla, insanlığın gələcəyinin hələ də öz əllərində olduğunu göstərir. Ənənəvi dini mətnlərdə apokalipsis dünyanın məhvi ilə nəticələnsə də, burada sonluq fərqli işlənib: dünya yalnız insan

qərarları ilə dəyişə bilər və bəlkə də tamamilə yeni və fərqli bir gələcək qurmaq mümkündür. Bu isə onu göstərir ki, hətta ilahi planlar belə insan iradəsi və seçimi ilə pozula bilər.

**Nəticə.** Beləliklə, "Xoş proqnozlar" romanı apokalipsisi dini baxımdan yox, mədəni və satirik bir yanaşma ilə təqdim etmişdir. N. Qeyman ənənəvi qiyamət ssenarisini ifrat ciddilikdən uzaqlaşdıraraq, onun məntiqsizliyini və absurduğunu vurğulamışdır. Müəllif apokalipsisi bir fəlakət kimi deyil, insan iradəsinin və seçimlərinin gücünü göstərən sınaq kimi təsvir edib. Ümumiyyətlə, Qeymanın əsərlərindəki apokaliptik mövzular çox vaxt dünyanın sonu ilə bağlı ənənəvi anlayışdan köklü şəkildə fərqlənir: o, apokalipsis anlayışına fiziki cəhətdən məhv olmaqdan daha çox şəxsi, mifoloji və ya kosmik çevrilmə kimi yanaşmaqdadır. Apokaliptik ssenarilərlə bağlı vəsvəsələrini yumor və absurdluğun harmoniyası ilə tənqid edən Nil Qeyman düşünürük ki, kifayət qədər xaotik həyat yaşayan müasir insanı bu cür qayğılardan xilas etmək məqsədinə uğurla müvəffəq olmuşdur.

## Ədəbiyyat


1. Beagley A.J. (1987), The Stitz Im Leben of the Apocalypse with Particular Reference to the Church's Enemies. Berlin: Walter de Gruyter.
2. Clemons A.L. (2017), Adapting revelation: Good Omens as a comic corrective. Journal of the Fantastic in the Arts, Vol.28, 86-101.
3. Edinger E.F., Elder G. (1999), Archetype of the Apocalypse: A Jungian Study of the Book of Revelation. Chicago: Open Court.
4. Gaiman N., Pratchett T. (2006), Good Omens. New York: William Morrow Paperbacks.
5. http://www.mille.org/publications/winter2001/newone.pdf
6. https://www.bbc.com/news/magazine-30512620
7. https://www.researchgate.net/publication/344263803_Apocalyptic_Literature_-_A_Never-Ending_Story
8. Nitsşe F. (2020), Antixrist. Tərcüməçi Y. Əsədov, Bakı: Qanun.